# Ölkə turizminə baxış

(Əvvəli 6-cı səhifədə).

Odur ki, Azərbaycan artıq dünyada turizim məkanı kimi tanınmağa başlamışdır. Hazırda ölkə Birləşmiş Millətlərin Ümumdünya Turizm Təşkilatının (UNNTO) İcraiyyə Şurasının üzvüdür.

Nailiyyətlərə gəlincə qeyd edək ki, əgər 2003-cü ildə Azərbaycanda təşkil olunan Beynəlxalq Turizm və Səyahətlər Sərgisində (AİTF) 8 ölkə, 32 şirkət təmsil olunurdusa 2013-cü ildə 35 ölkə, 200-dən çox şirkət təmsil olunmuşdur. Respublikamızın bu sərgidə 20 rayonu turizm potensialını əks etdirən stendlə təmsil edilmişdir. Bu il ölkədən 18 turizm müəssisəsi Dünya Turizm Təşkilatının (TDTT) assosiativ üzvləri sırasına daxil olmuşdur. Bunlardan 2-si hotel, 16-sı isə turizm şirkətidir. Bu o deməkdir ki, Azərbaycan DTT-in üzvü olan ölkələrdə kifayət qədər geniş təbliğ oluna biləcək.

Ölkədə turizm şirkətlərinin sayı isə artıq 232-dir. Son 10 ildə mehmanxana və mehmanxana tipli obyektlərin sayı 5,4 dəfə artaraq 516-ya çatmışdır. Onların 76 faizi regionlarda yerləşir. Ölkəyə gələn əcnəbi vətəndaşların sayı isə 2003-cü illə müqayisədə 2,4 dəfə artaraq 2 milyon 484.048 nəfər olmuşdur. Əgər Azərbaycana gələn xarici turistlərin ölkəmizdəki xərcləri 2003-cü ildə 57,7 milyon ABŞ dolları təşkil edirdisə bu rəqəm 2012-ci ildə 1 milyard 479 milyon ABŞ dollarına çatmışdır. İnkişafın yüksək sürətini müşahidə edən Dünya Tunrizm Təşkilatının baş katibi Taleb Rifahın demişdir: «Azərbaycan turizm sahəsində parlayan ulduzdur». Artıq fəxr etmək olar ki, parlayan ulduzdan Qəbələyə də pay düşür.

**Nadir ATAKİŞİYEV.**



Qəbələ. «Qafqaz» Karvansaray hotel kompleksi.
Foto Səhrab UMUYEVİNDİR.

# Bünyavirus nədir?

*(heyvanlar arasında yeni xəstəlik)*

Bu xəstəliyin törədicisi bünyo virus ailəsinə aid olan üç qarışığı-şamonda, akabena, aino adlı viruslardır. Ağcaqanadlar və həşəratlar vasitəsi ilə heyvanlara yoluxdurulur, heyvandan-heyvana və insana yoluxmur. Ət və süd məhsullarının istifadəsinə əks göstəriş yoxdur.

Xəstəlik 2011-ci ildə Almaniyada qeydə alınmışdır və sonradan Avropaya sirayət etmişdir. Bu ilin yay aylarından ilk dəfə olaraq aran rayonlarında müşahidə olunmuşdur. Hal-hazırda respublikanın 37 rayonunda müşahidə olunmağa başlamışdır. Çox təəsüflər olsun ki, Qəbələ rayonunda da bu xəstəlik qeydə alınmışdır. Belə ki, rayonun Savalan, Bəyli, Quşlar, Qaradeyn, Kürd, Bayramkoxalı, Əmili və digər kəndlərində bu xəstəliyə 250 başdan artıq heyvan yoluxmuş və baytar həkimlərimiz tərəfindən müalicə olunmuşdur. Müalicəyə cəlb edilmiş heyvanlar arasında ölüm halları qeydə alınmamışdır. Xəstəliyin kütləviliyini nəzərə alaraq onu bildirmək istəyirəm ki, heyvan sahibləri hər hansı bir heyvanda narahatçılıq hiss etdikdə baytar həkimlərinə müraciət etsinlər. Xəstəliyin klinikası ilkin olaraq heyvanın titrəməsi, temperaturun 41 dərəcəyə qalxması (bəzən temperatur olmaya da bilər), ağızdan suyun axması, burun dəliklərindən sarı bulanıq rəngli seliyin axması, ətraflarda axsaqlıq, xəstəliyin son gedişatında beyin pozğunluğu və ətrafların iflici kimi əlamətlər müşahidə olunur. Onuda bildirmək istəyirəm ki, bu xəstəliyin vaksini yoxdur, profilaktik olaraq 10 qram krialini 20 litr suda həll edib mal saxlanılan yerlərə və heyvanların üzərinə azacıq çiləmək lazımdır ki, həşəratlar krialinin iyinə yaxın düşməyəcək. Bu prosesi hər beş gündən bir təkrar etmək lazımdır.

Xəstə heyvan müşahidə olunarsa, o zaman baytar həkiminə müraciət edin. Siptomatik müalicə ilə heyvanınız sağalacaq. Onu da bildirmək istəyirəm ki, bütün müalicə hələlik vətəndaşların şəxsi hesabına aparılır.

**Bəhmən ABDURAHMANOV,**
**Qəbələ Rayon Baytarlıq İdarəsinin rəisi.**

# Yeri qorumaq üçün atmosferin qayğısına qalmaq lazımdır

Ötən əsrin əvvəllərindən ekoloji tarazlığın pozulması qlobal təhlükələrin artmasına səbəb olmuşdur. Onlardan biri də ozon qatının zədələnməsindən doğa bilən fəlakətlərlə bağlıdır. "Ozon qatının qorunması haqqında Qlobal Konvensiya" qəbul edilib. Artıq 20 ilə yaxındır ki, BMT-nin təşəbbüsü ilə sentyabrın 16-sı "Beynəlxalq ozon təbəqəsinin mühafizəsi günü" kimi qeyd olunur.

Ozon təbəqəsi günəşdən gələn ultrabənövşəyi şüaların qarşısını alır, məhvedici istilərin yerə düşməsinə imkan vermir. Lakin alimlərin qənaətinə görə, antropogen təsirlər nəticəsində son 50 ildə ozondağıdıcı maddələrin miqdarı artmaqdadır. Əgər bu prosesin qarşısı alınmasa, bəşəriyyət ciddi fəlakətlərlə üzləşə bilər. Ozonun seyrəlməsi flora və faunanın məhvi ilə yanaşı, insanlarda ağır xəstəliklərin yaranmasını sürətləndirə bilər. Son yüz ildə orta illik hərarətin təxminən 0.8 dərəcə yüksəlməsi, Arktikada buzlaqların əriməsi, okean sularının səviyyəsi 15-17 sm artması da ozon təbəqəsinin seyrəlməsi ilə izah olunur.

Ozon "deşikləri"nin yaranması haqqında mətbuatda məlumatlar getsə də, reallıqda bu deşiklər mövcud deyil, söhbət yalnız ozon qatının nazikləşməsindən gedə bilər. Əslində ozonun azalması mövsümi xarakter daşıyır. Yaz aylarında baş verən bu seyrəlmələri təbiət özü tədricən bərpa edir. Ozon qatı ekvatorda sıx, qütblərdə isə nisbətən nazikdir. Bu təbəqənin seyrəlməsinin ən yüksək göstəricisi 1950-80-ci illərin əvvəlinə qədərki dövrdə müşahidə olunub. Sonradan beynəlxalq miqyasda görülən tədbirlər, ozondağıdıcı maddələrin istehsalında nəzarət mexanizminin tətbiq olunması ozon təbəqəsinin sabitliyini nisbətən stabilləşdirdi.

Həmçinin ekoloji layihələrin həyata keçirilməsi də öz müsbət təsirini göstərməkdədir. 1987-ci ildə Kanadanın Monreal şəhərində ozon qatını dağıdan maddələr haqqında protokol imzalandıqdan sonra sənayedə tətbiq edilən ozondağıdıcı maddələrin dəyişdirilməsi ilə yanaşı, onların istehsal və istifadəsinin mərhələlər üzrə azaldılması nəzərdə tutuldu. Sonrakı illərdə qəbul olunan düzəliş protokollarında (London-1990, Kopenhagen -1992, Monreal-1997) ozondağıdıcı maddələrin atmosferə atılmasının qarşısının alınması və ozon təhlükəsi olmayan soyuducu qazların hazırlanması tam ciddiliyi ilə nəzarətə götürüldü. Bu sazişə imza atan dövlətlərdən biri də Azərbaycandır.

Ölkə Prezidenti 29 mart 2006-cı il tarixli fərmanı ilə "Ozon qatını dağıdan maddələr üzrə Monreal Protokolu"nda müəyyən olunmuş ozondağıdıcı maddələrin həmin protokolun iştirakçısı olmayan dövlətlərdən Azərbaycan Respublikasına idxalı və Azərbaycan Respublikasından bu protokolun iştirakçısı olmayan dövlətlərə ixracı qadağan olunmuşdur. Dövlətimiz Yer kürəsinin qorunması üçün regional və beynəlxalq razılaşmaları dəstəkləyir və qəbul etdiyi öhdəlikləri yerinə yetirməklə yanaşı, yeni təkliflərlə öz töhfələrini verir.

**Elnur HADIYEV,**
"Azərbaycan",
17 sentyabr 2013-cü il.

## Futbol

# "Qəbələ" liderliyi qoruyur

Topaz Premyer Liqasının VIII turunda "Qəbələ" rəqib meydançada "Simurq"la heç-heçə oynayaraq yarış cədvəlində yerini qorumuşdur.

Turun digər oyunları isə belə nəticələnmişdir: "Xəzər Lənkəran"-"İnter" 0:1, "Bakı"-"Sumqayıt"-1:0, "Neftçi"-"Qarabağ"-0:0, "Rəvan"-AZAL 0:0.

**Miri RƏHİMOV.**

# Arıqlamaq istəyirsinizsə

Dünya alimlərinin gəldikləri son qənaətə görə alma qabığında aşkar olunan elementlər əzələlərdə sağlamlıqla bağlı ciddi təhlükə yaradan piy qatının yığılmasının qarşısını alır.

Alma qabığında olan sirkə turşusu bədən əzələlərini tənzimləyir, artıq yağları əridir.

Tədqiqatçıların apardıqları ilkin təcrübələr göstərir ki, alma qabığında olan sirkə turşusu yağı əritməklə yanaşı, həm də gələcəkdə yarana biləcək piylənmənin də qarşısını alır.

Redaktor
O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
Məsul növbətçi
N. R. Atakişiyev.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, İ. Qutqaşınlı küçəsi, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydədən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AIIB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2300.
Oxucu məktubları geri qaytarılmır.